# Əbədilik missiyası

## (Unudulmaz insan, şair, Ali Sovetin deputatı, ictimai xadim Cavid Salman oğlu Axundovun işıqlı xatirəsinə ithafən)

**Turan Uğur**
**AYB-nin üzvü**




**(əvvəli ötən sayımızda)**

***...Necə sevinməyəsən bu təqdirəşayan mənzərələrə?!***

***Firəngiz xanımın bibisi oğlu, Seyid Mir Rəhim əmi də həmişə Cavid Axundovu xoş duyğularla anır.Mir Rəhim əmi mübarək insandır, Nardaranın seçkin nəsillərindən, Seyid övladlarından, Mir Alim kişinin oğlu kimi bizə ən əziz insanlardandır.Hər bayram mütləq şəkildə Mir Rəhim əmini yoluxmağa gedəndə söhbətimiz istər-istəməz hərlənir-fırlanır gəlir Cavid müəllimin üstünə.Cavid əmi Mir Rəhim əminin böyük qardaşı - rəhmətlik Mir Möhsün əmi ilə qədimdən dost olublar, hərçənd Mir Rəhim əminin xətrini daha çox istəyərdi.Mir Rəhim kişi də əla xatırlayır qəhrəmanımızı:***






Mir Rəhim İsmayılov:

-"Cavid bütün nəslə arxa, dayaq oldu.Hər kəsə qarşı səxavətli idi.Hamıya əl tuturdu.

(Təbəssümlə xatırlayır. Mir Rəhim əminin bəmbəyaz saqqalından gül qoxuyur)

-Bir gün dedim ki, ay Cavid, səni ancaq bir kostyumda görürəm, bəyəm başqası yoxundu, direktor adamsan.Vare ay Rəhim, bir kostyumdan 5 dənədi, amma eyni rəngdədir, neynim fərqli-fərqli geyinmək olmur axı.

-Düz deyirdi Cavid, sovet vaxtı hər şeyə ilişirdilər ki, pulu hardan almısan.Mənim özümdə də vardı həmin kostyumdan, rəhmətlik Elmira almışdı Moskvadan mənim üçün.Dedim ay Elmira, bunu geyinə bilərəm mən, professorların içində işləyirəmeee, onlar maaşla ala bilmirdilər, deməzdilər ticarət adamı necə geyinir? Poltexnik İnstitutunun "stalovasını" işlədirdim axı.

Geyinə bilirdik bəyəm?

-İlişirdilər?

-Həri.

Firəngiz ananın xalası qızı Xuraman xanımla da bu mövzuda söhbətləşirik.

Xuraman Əhmədova:

"-14-15 yaşında atamı, az sonra da anamı itirdim.Cavid əmi mənə dayaq oldu, hamilik etdi.Gətirdi evinə, böyütdü, boya-başa çatdırdı.Turan, inanırsan, onun bu yaxşılığının əvəzini Allah ikiqat verdi.Mənim ad günümdə - 1978-ci ilin mart ayının 17-də Rəbbimiz Cavid əmiyə əkiz övlad bəxş elədi.Novruz bayramı ərəfəsində, mübarək günlər əsnasında Cavid əminin sevincinə sevinc çatmazdı"

Xuraman xanımın sözünə qüvvət, doğrudan da, qonşuları Roza xala sonralar Firəngiz xanıma danışarmış ki, Cavid oğlanlarının doğulduğunu eşidəndə az qalsın sevincdən uçsun, pilləkanları iki-iki düşürmüş.48 yaşında Allahın verdiyi bu övlad payları onun vaxtilə etdiyi yaxşılıqların qarşısına çıxması idi.Özü də Novruz günlərində, bayram bayrama qarışmışdı sanki.Novruz bayramı demişkən, qohum-əqrəba təklif elədi ki, uşaqların adlarını – birini Novruz, birini Bayram qoysunlar.Amma Cavid əmi adqoyma aktını Firəngiz anaya əmanət elədi.

Firəngiz xanım:

-"Baxdım uşaqların birinin üzünə, elə kamallı baxırdı mənə, Allah elə ağıllı gözləri vardı, mən də adını Kamil qoydum, o biri isə elə camallı görünürdü ki, ona da Cəmil adını verdim"

Gerçəkdən də adları ilə böyüdü uşaqlar.

Xuraman xanım sözlərinə davam eləyir:

-"Cavid əmi hamımızı evli-eşikli elədi. O vaxt ev almağa kimdə o qədər pul vardı ki?! Cavid əmi məni köçürtdü, toyumu elədi, həyat yoldaşım Mirzəağa ilə ev almağımıza kömək etdi.

***Elə Firəngiz xanımın bacısı qızı Səbinə də təxminən eyni fikirləri bölüşür mənimlə.***

***Səbinə xanım Əsgərova:***

***-Ay Turan, çox atalıq edib bizə.Atam rəhmətə gedəndə 15 yaşım vardı.Ailəmizə dayaq oldu, məni köçürtdü, Moskvadan gedib mebeliməcən aldı.Deputat seçiləndə yeniyetmə qız idim, neçənci il idi yadımda deyil...***

***- 1990-cı il...***

***-Hə, yaxşı yadımdadır, Mərdəkandakı bağlarında idilər.Hamımız getdik onu təbrik elədik.Evin içi idik da demək olar ki...Cavid əmi olmasaydı indi biz bu səviyyədə olmazdıq, evində sərbəst idik, bizi sıxmırdı.***

Hə, nə yadımda düşdü, Xalq Cəbhəsi gələndə onları bir sutka girov saxladılar.Nə vaxt idi?

-1992 –ci il, 14—15 may hadisələrini nəzərdə tutursuz?

-Həri, nələr keçirtdik onda.Mobil telefon filan yox, xəbər ala bilmirdik.Özü də şəkər xəstəliyi vardı Cavid əmini-bütün deputatları ac-susuz saxlamışdılar, yaman stress yaşadıq onda.

Əslində, belə stressli anları, keşməkeşli günləri az olmamışdı şairin.Həyat yaşantıları Cavid müəllimin ağ günlərini siyaha bürüdüyü, günlərini göy əskiyə düydüyü məqamları da yazmaq olar.Ancaq yazmıram, yazmıram ona görə ki, istənilən halda xeyirin enerjisi şərdən, yaxşının gücü pisdən əfzəldir, üstündür.

İşıqlı insanın 26-cı anım ilində Səbinə xanımla yenidən Cavid müəllimi anırıq:

-"Ümumiyyətlə, uşaqlığım xalagildə keçib.

Cavid əminin ikinci qızı Səadətlə daha yaxın idim.



Həm onunla təxminən eyni yaşdadydım, həm bir yerdə çox oynayardıq. 1988-ci ildə atam rəhmətə gedəndən sonra Cavid əminin ailəsinə lap qaynayıb-qarışdım.Biz sadə ailədə böyümüşük, ancaq Cavid müəllim bizə o yoxluğu hiss etdirmədi.Bizi tam himayə elədi.

Günlərin bir günü mənə elçi çıxdı. O vaxt 6- cı mikrorayonda yaşayırdıq, üçotaqlı amma otaqları dar mənzilimiz vardı.Cavid müəllim gəldi, elçilərlə görüşdü. Çox xoşuna gəldi, onları yola saldı, amma dedi "yox!"- ovaxtkı dönəmi danışıram haaa...1991-ci ildə Mərdəkanda mənə elə bir böyük nişan elədi ki, bəlkə heç kimdə elə bir nişan olmamışdı.Gələn qonaqlar da təəccübləndilər ki, "atası yoxdur bu qızın, ancaq necə təmtəraqlı nişanı oldu" deyə.

Bir də eşitdik ki, mənə Moskvadan mebel sifariş edib. Qatarı qarşılamağa qayınım getdi.Vallah elə nəfis, bahalı mebellər gətizdirdi ki... Açığı heç bir zaman korluq çəkməmişəm.

Bax Turan, onu da xatırlayıram, uşaq ikən Moskvadan elə geyimlər pay alırdı bizə.Tək mənə yoxe, hamımıza.Allah ona rəhmət eləsin! Mən hər dəfə Masazıra dərsə gedəndə, elə də keçəndə, belə də keçəndə mütləq "fatihə" sini oxuyram, "salavat" ını çevirirəm.

Mən atamı 15 yaşıma kimi, Cavid əmini isə 25 yaşına kimi tanıdım.Nə deyim, o, əsl ata idi.Firəngiz xala da elə bir böyük ürəyə sahibdir ki!! Hamımıza yaxşı idi, fərq qoymazdılar bizə. Xalam çox böyük insandır, həqiqətən.

***Onu da deyim, Cavid əmi haqqında ürəyim doludur.***

***O vaxt biz restoran zad bilməzdik, restoran filan nə gəzirdi indiki kimi. Ağ "Volqa" sında bizi aparırdı restorana, Cavid əminin sayəsində özümüzü seçilən adam kimi hiss eləmişik.***



***Yadınızdadır da, müsamirələr keçirilərdi məktəb illərində, ən gözəl libasları Moskvadan çeklə alardılar "Beryozka" mağazaları vardı Moskvada - adla deyilirdi, ordan alardılar.***

Qeyd: Doğrudan da "Beryozka" mağazaları olduqca nüfuzlu məkan sayılırdı.Bu şəbəkə 1961-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə yaradılıb.Moskvada "Beryozka", Kiyevdə "Kaştan", Minskdə "İvuşka", Bakıda "Çinar" adı ilə fəaliyyət göstərirdi.1964-cü ildən SSRİ – də vətəndaşların xarici valyutadan istifadə etməsinə, xarici valyutanın dövriyyəyə buraxılmasına qadağalar daha ciddi şəkildə nəzarətə götürüləndə, "Beryozka" şəbəkəsnin mağazalarında alış-veriş xüsusi çeklərlə aparıldı.Yəni qanuni şəkildə valyutası olanlar onları "vneşposıltorq" un çekləri ilə dəyişib və həmin çeklərdən "Beryozka" da istifadə edə bildilər.Ən əlçatmaz, defisit mallar satılan məkanda istənilən məhsulu almaq mümkün oldu.Çekin varsa, nə istəyirsən al. Amma "Beryozka" mağazalar şəbəkəsində satılan məhsulların qiymətləri xarici ölkələrlə müqayisədə hədsiz dərəcədə baha idi.Qadınlar üçün yun koftanın qiyməti 9-10 & idisə, "Beryozaka" da həmin koftalar

70-80& - a təklif olunurdu.



Hətta Büro üzvlərindən Kuznetsov, Demiçev, Kapitonov, Polyanski və başqa nüfuzlu ailələr də "Beryozka" mağazalarından alış-veriş edərdilər.Sovet dönəminin guya "ən təmiz kommunisti" sayılan Mixail Suslov və ailəsi də "Beryozka" mağazalarında tez-tez görünərdilər.

Yəni Səbinə xanım bu mənada da haqlıdır.Cavid əminin ən bahalı malları Moskvadan ona və başqa qohumlar üçün alması, onlarla öz övladlıarı arasında ayrıseçkilik salmamasına dəlalət edirdi.Səbinə xanım dönə-dönə deyir ki, Cavid əminin sayəsində heç vaxt gözüm nədəsə qalmadı.

Əminəm ki, Cavid müəllimin də gözü geridə qalmır.Onu sevənlər - övladları, qohumları mütləq Xırdalanda uyuduğu qəbiristanlığa ziyarətinə gedirlər, ruhuna uca Rəbbimizdən rəhmət diləyirlər.Özüm də şənbə-bazar Novxanıya gedəndə mütləq Xırdalandan keçib, daularımı edirəm.Ən azı hər anım günü – yanvarın 25-i və doğum günü iyulun 1-i mütləq Cavid müəllinin hüzuruna gedirik.Gedib onunla əhvalpürsanlıq edib, həmsöhbət oluruq.Mən də Cavid əminin məzarı üstə gedəndə şeirlərindən deyirəm, şair idi axı Cavid Salmanoğlu, məni hamıdan yaxşı başa düşər, sanki bu formada yüngülləşir, onunla birgə mən də ucalıram.

***Gəldik ucalıq məqamına. Əbədilik missiyasını yerinə yetirənlərin yolu ucalıqdan keçmirmi?! Sən demə, Cavid Axundov şeirlərində məhz buna görə tez-tez "ucalıq" sözünə rast gəlirəmmiş.Əbədilik missiyası ilə bugün də yaşayan Cavid əmiyə bu xatirə günündə gözaydınlığı verməyim gəlir, təxminən bu sayaq:***

***Cavid Salmanoğlu, əbədi və əzəli missiyan, mübarək!***